# Səfirin Azərbaycana qarşı təxribatı - İlginc faktlar

□□□□□□□□□, 05 □□□□□□ 2015 20:04



Səfirlikdən AzNews.az-a daxil olan məlumatnin APA xəbər agentlyində dərc olunan məqalə ilə bağlı mövqeyi

AzNews.az xəbər verir ki, APA-nın diplomatik mənbələrdən əldə etdiyi məlumata əsasən, Yunanıstan prezidenti Prokopis Pavlopulos Bakıda keçiriləcək I Avropa Oyunlarında iştirak etmək qərarından daşınıb. Buna səbəb isə Yunanıstanın Azərbaycandakı səfiri Dimitris Sunqasın bu ölkənin Xarici İşlər Nazirliyinə ötürdüyü dezinformasiya xarakterli məlumatlar olub.

Belə ki, səfir mayın 21-də Yunanıstan XİN-ə göndərdiyi məlumatda iddia edib ki, I Avropa Oyunlarının açılışında heç bir dövlət və hökumət başçısı iştirak etməyəcək.

Səfir öz iddiasını həm də Avropa İttifaqının Bakı ofisindən səfirliyə daxil olan və guya I Avropa Oyunlarının dünya liderləri tərəfindən “boykot” ediləcəyi haqqında məlumat ilə əsaslandırıb.

Səfir məktubunda hətta iddia edib ki, Rusiya və Türkiyə prezidentləri də açılışda iştirak etməyəcəklər. Məhz bundan sonra Yunanıstan hökuməti səfirin yanlış iddiasını əsas tutaraq, açılış mərasimində idman nazirinin müavini Stavros Kontonis səviyyəsində təmsil olunmaq barədə qərar qəbul edib.

Diplomatik mənbə onu da bildirib ki, Yunanıstan XİN-i formal olaraq bu qərarını Prezident Prokopis Pavlopulosun mayın 9-da Qələbə günü münasibətilə Moskvada keçirilən hərbi paradda iştirak etməməsi və buna görə də balans saxlamaq zərurəti ilə əsaslandırıb.

O da məlum olub ki, son günlər Avropa İttifaqı və onun Bakıdakı ofisi ayrı-ayrı ölkələrin rəhbərliyinə və Azərbaycandakı səfirliklərinə müraciətlər edərək, onları I Avropa Oyunlarının

açılış mərasimində iştirakdan çəkindirməyə çalışır.

***

Bu iddiaları Yunanıstan Respublikasının Bakıdakı Səfirliyi təkzib edibı. Məsələ ilə bağlı daxil olan məlumatda deyilir: "Yunanıstan Respublikasının Bakıdakı Səfiri APA- xəbər agentliyində "Avropa İttifaqının Bakı ofisinin və Yunanıstanın Azərbaycandakı səfirinin təxribatçı işbirliyi ortaya çıxıb" adı altında dərc olunan məqalənin bütün məzmununu qəti şəkildə təkzib edir. Yunanıstan tərəfi rəsmi mövqeyini bildirəcəkdir".